AMADA
STAY CLEAN

AZƏRBAYCAN MİLLİ ANTİDOPİNQ AGENTLİYİ

# 2024
# İLLİK HESABAT



"Hər yerdə ədalət olmalıdır - beynəlxalq münasibətlərdə, ailədə, hər bir ölkədə, hər bir cəmiyyətdə. Biz buna çalışırıq. Biz tarixi ədaləti, ərazi bütövlüyümüzü və suverenliyimizi bərpa etmişik və bununla qürur duyuruq. Əminəm ki, bu şanlı Qələbəmiz hər bir Azərbaycan gənci üçün əlavə ruhlandırma amili olacaq. Biz döyüş meydanındakı Zəfərimizə idman qələbələrini də əlavə etdik və bu, əlbəttə ki, ölkəmizin beynəlxalq nüfuzunu daha da artırır. Çünki idmanın inkişafı hər bir ölkənin ümumi inkişafının nümayişidir, onu əks etdirir. Azərbaycan güclü dövlətdir, öz gücünə əsaslanan, öz yolu ilə gedən, heç kimin qarşısında heç bir öhdəliyi olmayan, heç kimin qabağında baş əyməyən, ləyaqətlə, vicdanla irəliyə gedən bir ölkədir və bu, bizim böyük sərvətimizdir."

**İlham Əliyev** | Azərbaycan Respublikasının Prezidenti

# ABBREVİATURA

**ADAMS** – Antidopinq İdarəetmə və Məlumat Sistemi
**ADEL Platforması** – Antidopinq Təhsil və Öyrənmə Platforması
**AMADA** – Azərbaycan Milli Antidopinq Agentliyi
**AQP** – Antidopinq Qayda Pozuntusu
**ASA** – Azərbaycan İdman Akademiyası
**ATF** – Atypical Finding (Atipik Nəticə)
**CAHAMA** – Ümumdünya Antidopinq Agentliyi üzrə Ad Hoc Avropa Komitəsi
**CEADO** – Mərkəzi Avropa Antidopinq Təşkilatları
**CoE** – Avropa Şurası (Council of Europe)
**DNİ** – Dopinq Nəzarəti İnspektoru
**ERP** – Müəssisə Resurslarının Planlaşdırılması Sistemi (Enterprise Resource Planning)
**ESD** – Mərkəzləşdirilmiş Elektron Sənəd Dövriyyəsi
**HADA** – Yunanıstan Antidopinq Agentliyi
**IAAP** – Beynəlxalq Bədii Fotoqraflar Assosiasiyası
**IBP** – İdmançı Bioloji Pasportu
**iNADO** – Milli Antidopinq Təşkilatları İnstitutu
**ISO** – Beynəlxalq Standartlaşdırma Təşkilatı
**ITA** – Beynəlxalq Test Agentliyi
**JADA** – Yaponiya Antidopinq Agentliyi
**KİV** – Kütləvi informasiya vasitələri
**NADA Germany** – Almaniya Milli Antidopinq Agentliyi
**OANA** – Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatı
**POLADA** – Polşa Antidopinq Agentliyi
**QTQ** – Qeydiyyata Alınmış Test Qrupu
**TBP** – Test Bölüşdürmə Planı
**TDMA** – Türkiyə Dopinqlə Mübarizə Komissiyası
**T-DO** – Avropa Şurasının Antidopinq Konvensiyası üzrə Monitorinq Qrupu
**Tİİ** – Terapevtik İstifadə üçün İstisnalar
**UCL** – London Kollec Universiteti
**UKAD** – Birləşmiş Krallıq Antidopinq Agentliyi
**UNESCO** – Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Təşkilatı
**USADA** – ABŞ Antidopinq Agentliyi
**WADA** – Ümumdünya Antidopinq Agentliyi

# MÜNDƏRİCAT


4 AMADA-nın HÜQUQİ ƏSASLARI, FUNKSİYALARI VƏ STRUKTURU

6 ÖN SÖZ

7 İCMAL

9 MÜŞAHİDƏ ŞURASI

11 İDMANÇILAR MƏSLƏHƏTÇİ KOMİSSİYASI

12 MÜSTƏQİL KOMİTƏLƏR

16 TESTETMƏ

22 NƏTİCƏLƏRİN EMALI VƏ TƏHQİQAT

26 ELM, TİBB VƏ TƏHSİL

41 MEDİA VƏ İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏR

56 İNFORMASİYA TEXNOLOGİYALARI VƏ TƏHLÜKƏSİZLİYİ

62 DİGƏR

# AMADA-nın HÜQUQİ ƏSASLARI VƏ FUNKSİYALARI

## Haqqında

» 14 dekabr 2016-cı il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Fərmanı ilə yaradılmışdır

» 21 dekabr 2016-ci il tarixində Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi tərəfindən təsis edilmişdir. 23 dekabr 2016-cı il tarixində dövlət qeydiyyatına alınmışdır

- » Ümumdünya Antidopinq Məcəlləsinə (Məcəllə) tərəfdar çıxan təşkilat
- » Publik hüquqi şəxs
- » Maliyyə müstəqilliyi

## Hüquqi əsaslar

» Avropa Şurasının Antidopinq Konvensiyası

» UNESCO-nun "İdmanda dopinqə qarşı mübarizə haqqında" Beynəlxalq Konvensiyası

» 29 noyabr 2016-ci il tarixli 447-VQ nömrəli "İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında" Azarbaycan Respublikasının Qanunu

» Ümumdünya Antidopinq Məcəlləsi və beynəlxalq standartlar

» Azərbaycan Milli Antidopinq Qaydaları

## Funksiyalar

» ölkə ərazisində antidopinq siyasətini tətbiq etmək;

» dopinq nəzarəti testlərini keçirərək və təhqiqatlar apararaq idman subyektlərini monitorinq etmək;

» pozuntu faktları aşkarlandıqda müvafiq şəxsləri məsuliyyətə cəlb etmək;

» preventiv və maarifləndirmə tədbirlərini həyata keçirmək;

» dopinq və onların qanunsuz dövriyyəsi ilə mübarizə istiqamətlərini müəyyən etmək;

» antidopinq sahəsində beynəlxalq münasibətlər qurmaq və əməkdaşlıq etmək;

» Azərbaycan Respublikasının antidopinq sahəsində tərəfdar çıxdığı beynəlxalq müqavilələrin müddəalarına riayət etmək.

# AMADA-nın Strukturu



# ÖN SÖZ



Əziz həmkarlar və tərəfdaşlar,
2024-cü il üzrə Müşahidə Şurasının illik hesabatını təqdim etmək mənim üçün böyük şərəfdir. Yeni Şuranın ilk tam fəaliyyəti ili olan bu il, Agentlikdə yenilənmiş idarəetmə və strateji yanaşmanın əsasının qoyulduğu mühüm bir mərhələ olmuşdur.

Dopinqə qarşı mübarizə daim dəyişən qaydalar və risklər fonunda davamlı yenilənən yanaşma tələb edir. İl ərzində Şura güclü korporativ idarəetmənin tətbiqinə, şəffaflıq və hesabatlılığın təmininə, eləcə də beynəlxalq standartlara uyğun nəzarət mexanizmlərinin qurulmasına xüsusi önəm vermişdir.

Qarşıdakı dövrdə bu əsaslar üzərində uzunmüddətli hədəflərə doğru ardıcıl və sistemli şəkildə irəliləmək əzmindəyik.

Bu formalaşdırıcı mərhələdə göstərdikləri əzmkarlıq və səylərinə görə Şura üzvlərinə, Agentliyin İcraçı direktoruna və bütün əməkdaşlara dərin təşəkkürümü bildirirəm. Birgə əməkdaşlıq və ortaq məsuliyyət ruhu ilə Azərbaycanda idman ədalətinin və dopinqsiz mühitin möhkəmləndirilməsinə töhfə verməyə davam edəcəyik.

Əminəm ki, birgə fəaliyyətimiz uğurlu və davamlı nəticələr verəcəkdir.

Dəstəyinizə və göstərdiyiniz etimada görə təşəkkür edirəm.

**Nigar Arpadarai** | AMADA-nın Müşahidə Şurasının Sədri



İdman yalnız fiziki qabiliyyətin və nailiyyətin ifadəsi deyil, eyni zamanda ədalət, dürüstlük və insan ləyaqəti kimi bəşəri dəyərlərin daşıyıcısıdır. Antidopinq fəaliyyəti isə bu dəyərlərin qorunmasına, inkişafına və gələcək nəsillərə ötürülməsinə xidmət edən əvəzsiz bir mexanizmdir.

Azərbaycan Milli Antidopinq Agentliyi (AMADA) olaraq, biz təmiz idman prinsiplərinin təmin olunmasını təkcə hüquqi və inzibati məsuliyyət deyil, həm də etik və strateji öhdəlik kimi qəbul edirik.

2024-cü il — Olimpiya ili — AMADA üçün dönüş nöqtəsi oldu.

Biz bu ili yalnız yüksək keyfiyyətli dopinq nəzarəti ilə deyil, elmi əsaslı və yeni maarifləndirici təşəbbüslərlə də fərqləndirdik. AMADA bu il ərzində dopinq nəzarətinin gücləndirilməsi ilə yanaşı, elmi biliklərin tətbiqini, təhsilin rolunu və rəqəmsal innovasiyaları öz fəaliyyətinin əsas sütunlarına çevirdi.

Süni intellekt əsaslı rəqəmsal alətlər, genişmiqyaslı elmə əsaslanan maarifləndirmə təşəbbüsləri və beynəlxalq platformalarda fəal iştirakımız sayəsində AMADA 2024-cü ildə yalnız yerli deyil, həm də qlobal miqyasda təmiz idmana töhfə verən aparıcı qurum kimi tanındı. Bu hesabat Agentliyin çoxşaxəli fəaliyyətini sistemli şəkildə təqdim etməklə yanaşı, həm də AMADA-nın beynəlxalq antidopinq sisteminə inteqrasiya səylərinin, strateji baxışının və insan hüquqlarına əsaslanan missiyasının əksidir. Bu, eyni zamanda gələcək fəaliyyət istiqamətləri üçün aydın bir yol xəritəsidir.

Bu hesabat — yalnız fəaliyyət icmalı deyil, həm də gələcəyə yönəlmiş bir çağırışdır. Çünki biz inanırıq ki, idmanda əsl zəfər yalnız dürüst yolla mümkündür. Təmiz idman – bu günümüzün çağırışı deyil, gələcəyimizin mənəvi təməlidir. AMADA bu təməli birlikdə qorumaq üçün var gücü ilə çalışmağa davam edəcək.

**Təhminə Tağı-zadə** | AMADA-nın İcraçı direktoru

# İCMAL

## Bizim missiyamız

Azərbaycan Milli Antidopinq Agentliyi (AMADA) ölkədə antidopinq siyasətini həyata keçirən yeganə qurumdur. Bizim missiyamız – təmiz idmanı qorumaq, idmanda ədaləti təmin etmək və bütün maraqlı tərəflər üçün etibarlı tərəfdaş olmaqdır. Bu missiyanı maarifləndirici proqramlar, risk qiymətləndirilməsinə uyğun testetmə, nəticələrin idarə olunması, təhqiqat və innovativ texnologiyaların tətbiqi ilə həyata keçiririk.

Fəaliyyətimiz beynəlxalq çərçivələrə – Ümumdünya Antidopinq Məcəlləsi, Beynəlxalq Standartlar, Avropa Şurasının Antidopinq Konvensiyası və UNESCO Konvensiyasına tam uyğun qurulub. AMADA, həmçinin "Azərbaycan 2030: Milli Prioritetlər" sənədində təsbit olunmuş sağlamlıq, şəffaflıq və innovasiya hədəflərinə xidmət edir.

## Strateji istiqamətlər

AMADA-nın 2021–2025-ci illər üzrə strateji planı 4 əsas məqsədi əhatə edir:

1. Beynəlxalq öhdəliklərin icrası – Məcəllə və beynəlxalq standartlara tam uyğun fəaliyyət.
2. İnnovativ yanaşma – dopinq risklərinin qabaqlanması üçün məlumat, araşdırma və süni intellekt əsaslı həllərin tətbiqi.
3. Effektiv tənzimləmə və şəffaflıq – nəticələrin idarə olunmasında ədalətli, hüquqa əsaslanan qərarvermə.
4. Məlumat və texnologiya potensialı – rəqəmsal transformasiya və məlumat analitikası ilə qərarvermənin optimallaşdırılması.

## Əsas nəticələr və nailiyyətlər

2024-cü il - Olimpiya ili - AMADA üçün dönüş nöqtəsi oldu:

» **Risk qiymətləndirilməsi əsasında Test Bölüşdürmə Planı:** 30 idman növünü əhatə edən 1300 test həyata keçirildi, onların 49 faizi yarışdan kənar testlər idi. Qan və İdmançı Bioloji Pasportu üzrə nümunələr toplanaraq hematoloji monitorinq gücləndirildi.

» **Nəticələrin idarə olunması:** 12 antidopinq işi yekunlaşdırıldı, qərarlar WADA standartlarına uyğun və şəffaf prosedurlarla qəbul olundu.

» **Maarifləndirmə və təhsil:** 3000-dən artıq iştirakçı seminar və vebinarlarda iştirak etdi. ADEL platforması və həkimlər üçün xüsusi sessiyalarla maarifləndirmə ekosistem xarakteri aldı.

» **İnnovasiya və rəqəmsal transformasiya:** Süni intellekt əsaslı chatbotlar, Telegram botu və e-learning modullarının istifadəsi sayəsində idmançılar ilə birbaşa əlaqə üçün yeni formatlar yaradıldı.

» **Beynəlxalq əməkdaşlıq:** WADA, UNESCO, Avropa Şurası, iNADO, CEADO və digər tərəfdaşlarla əməkdaşlıq gücləndirildi, Bakı və Qubada beynəlxalq konfranslar keçirildi, NADA Germany ilə Anlaşma Memorandumu imzalandı.

» **İctimaiyyətlə əlaqələr:** 185 sosial media paylaşımı, 5 müsabiqə, 34 press-reliz və 27 ölkədən təqdim olunan 205 foto ilə beynəlxalq foto müsabiqəsi vasitəsilə təmiz idman dəyərləri cəmiyyətə təqdim olundu.

## Gələcəyə baxış

AMADA gələcək illərdə də şəffaflıq, innovasiya və tərəfdaşlıq prinsiplərinə sadiq qalaraq regionda antidopinq siyasətinin aparıcı qüvvəsi olmaq niyyətindədir. Qarşıdakı hədəf - idmançılar üçün təhlükəsiz, ədalətli və innovativ idman mühitini təmin etməklə, beynəlxalq arenada AMADA-nın nüfuzunu daha da möhkəmləndirməkdir.

## Strateji istiqamətlər

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiqlənmiş "Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində müəyyən edilmiş "qüdrətli dövlət və yüksək rifah cəmiyyəti" hədəfləri əsasında və ölkənin uzunmüddətli inkişaf trayektoriyasına uyğun olaraq, AMADA öz fəaliyyətində bu prioritetləri əsas istiqamət kimi qəbul etmişdir.

Bununla yanaşı, Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədləri (DİM) də nəzərə alınaraq, agentlik qarşıdakı onillik üçün strateji fəaliyyət çərçivəsini formalaşdırmışdır. Bu çərçivə idarəetmədə şəffaflıq və etik yanaşmaların gücləndirilməsi, sağlamlıq və təhsilin inkişafı, insan hüquqlarına hörmət, innovasiya və rəqəmsal transformasiya, effektiv tərəfdaşlıqların qurulması və ətraf mühitə dair öhdəliklərin yerinə yetirilməsi istiqamətində konkret hədəfləri əhatə edir.

Beləliklə, AMADA-nın 2021-2025-ci illər üzrə strateji planı həm milli prioritetlərlə, həm də beynəlxalq öhdəliklərlə (xüsusilə WADA Məcəlləsi və BMT-nin Dayanıqlı İnkişaf Gündəliyi) uyğunlaşdırılmış şəkildə hazırlanaraq, dopinqə qarşı mübarizədə daha sistemli, inklüziv və uzunmüddətli yanaşmanın tətbiqini təmin edir.



# Müşahidə Şurası

## Müşahidə Şurasının üzvləri

- **Nigar Arpadarai** – Müşahidə Şurasının sədri, Azərbaycan Respublikasının Milli Məclisinin deputatı
- **Samir Nuriyev** – Müşahidə Şurasının sədr müavini, 19 saylı vəkil bürosunun müdir müavini
- **Şahin Bayramov** – Audit komitəsinin sədri, Qarabağ Universitetinin rektoru
- **İnarə Ağabalayeva** – Kliniki Tibbi Mərkəzin toksikoloji reanimasiyasının həkim-toksikoloqu
- **Namiq Məmmədov** – "Zeytun Pharmaceuticals" MMC-də provizor

# Müşahidə Şurası

2023-cü ilin oktyabr ayında Azərbaycan Milli Antidopinq Agentliyinin Müşahidə Şurasının yeni tərkibinin formalaşdırılması Agentlikdə yeni mərhələnin başlanğıcı oldu. Müşahidə Şurasının ilk mühüm qərarı Agentliyə yeni İcraçı direktorun təyinatı olmuşdur.

2024-cü il, Müşahidə Şurasının tam fəaliyyət göstərdiyi ilk ildir. Bu dövr əsasən idarəetmə çərçivələrinin, maliyyə nəzarət mexanizmlərinin və strateji planlaşdırma proseslərinin qurulmasına yönəldilmişdir. Şura Agentliyin davamlı inkişafı üçün etibarlı və dayanıqlı təməl yaratmağı özünün əsas məqsədi kimi müəyyən etmişdir.

**Müşahidə Şurasının öhdəlikləri əsasən üç istiqamət üzrə qruplaşdırılır:**
· Agentliyin strateji inkişaf istiqamətlərini müəyyənləşdirmək;
· Agentliyin maliyyə planlaşdırmasını təsdiq etmək və maliyyə idarəçiliyi üzərində nəzarəti həyata keçirmək;
· Agentliyin fəaliyyətinə dair daimi hesabatlılığı təmin etmək.

## Əsas məqsədlər və 2024-cü ildə görülmüş işlər

**Müşahidə Şurası öz fəaliyyətini aşağıdakı əsas istiqamətlər üzrə qurmuşdur:**
· **Korporativ idarəetmənin gücləndirilməsi:** Azərbaycan Respublikasının qanunvericiliyinə və beynəlxalq standartlara uyğun olaraq idarəetmə və icra funksiyaları arasında aydın bölgü yaratmaq məqsədilə qabaqcıl korporativ idarəetmə yanaşmaları tətbiq edilmişdir. Bu istiqamətdə ilk addımlardan biri kimi Korporativ katibin təyin olunması olmuşdur. Bu təyinat Şuranın fəaliyyətinin səmərəli təşkili və rəhbər orqanlar arasında əlaqənin gücləndirilməsi üçün mühüm rol oynamışdır.

· **Maliyyə şəffaflığının təmin edilməsi:** Şura maliyyə idarəçiliyi və hesabatlılıq sahəsində etibarlı nəzarət sistemlərinin qurulmasını prioritet elan etmişdir. Bu məqsədlə Audit Komitəsi yaradılmışdır.

· **Strateji planlaşdırmanın həyata keçirilməsi:** Şura Agentliyin gələcək fəaliyyət istiqamətlərini müəyyən etmək və antidopinq sahəsində dəyişən beynəlxalq tələblərə uyğunlaşmaq məqsədilə strateji planın hazırlanması işlərinə start vermişdir.

# İdmançılar Məsləhətçi Komissiyası

## İdmançıların Cəlb Edilməsi

AMADA idmançıların fikirlərinə xüsusi əhəmiyyət verir və öz fəaliyyətində bunu nəzərə alır. AMADA üçün idmançıların dopinqlə mübarizəyə qatılması, onların əməkdaşlığa cəlb edilməsi və onlara bərabər imkanların təmin edilməsi əhəmiyyətlidir.

Bunu nəzərə alaraq 2019-cu ildə AMADA özünün idmançı ictimaiyyəti ilə əməkdaşlığının artırılması üzrə davam edən səylərinin bir nümunəsi kimi İdmançılar Məsləhətçi Komissiyasını yaratmışdır. Onun vəzifəsi AMADA-nın fəaliyyətinin müxtəlif aspektlərini müzakirə etmək və tövsiyələr hazırlamaqdır.

Komissiya sadəcə olaraq idmançıların təmsil edildiyi qurum deyil, o, həmçinin AMADA-ya təmiz idmanın gələcək inkişafı və təşviqi üzrə atılan addımlara dair məsləhət verən mühüm qurumdur.

## AMADA İdmançılar Məsləhətçi Komissiyası

» **İlham Zəkiyev** – Paracüdo (sədr)
» **Hacı Əliyev** – Güləş
» **Rəsul Çunayev** – Güləş
» **Fəridə Əliyeva** – Karate
» **Siyana Vasileva** – Gimnastika
» **Fuad Qurbanov** – Atıcılıq
» **Aynur Məmmədova** – Parataekvondo
» **Nazim Babayev** – Atletika
» **Ayan Xankişiyeva** – Velosiped
» **Kamran Şahsuvarlı** – Boks
» **Rüstəm Orucov** – Cüdo
» **Ruslan Abışov** – Futbol

# Müstəqil komitələr

“İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının 2016-cı il 29 noyabr tarixli 447-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 14 dekabr tarixli 1158 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 21 fevral 2023-cü il tarixli 2040 nömrəli Fərmanına əsasən, Terapevtik İstifadəyə İcazə, İntizam və Apellyasiya Komitələrinin təşkili **Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə** həvalə edilmişdir. Buna uyğun olaraq, Azərbaycan Respublikası səhiyyə nazirinin 08 aprel 2024-cü il tarixli, 3-28/3-1 -130/2024 saylı əmri ilə Terapevtik İstifadəyə İcazə, İntizam və Apellyasiya Komitələrinin Əsasnamələri təsdiq edilmiş və tərkibləri müəyyən edilmişdir.

## İntizam Komitəsi

Məqsəd - antidopinq qayda pozuntuları üzrə işlərə baxılması və mahiyyəti üzrə qərar qəbul edilməsi

Sədr – Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin Tibbi Xidməti İdarəsinin rəis müavini, Əfəndiyev İsmayıl Namiq oğlu

7 üzv

## Terapevtik İstifadəyə İcazə Komitəsi

Məqsəd - dopinq vasitələrinin və üsullarının terapevtik məqsədlərlə istifadə edilməsinə icazənin verilməsi

Sədr – Bakı şəhər Narkoloji Dispanserin direktoru, Məmmədov Qalib Adil oğlu

7 üzv

## Apellyasiya Komitəsi

Məqsəd - antidopinq qayda pozuntuları və terapevtik istifadəyə icazə ilə bağlı şikayətlərə baxılması və yekun qərar qəbul edilməsi

Sədr – Azərbaycan Tibb Universitetinin Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrasının dekanı, Mədətli Fərəh İlham qızı

7 üzv

# Əməkdaşlıq: yerli

2024-cü ildə AMADA-nın əməkdaşlıq siyasəti iki paralel istiqamətdə qurulmuşdur - yerli və xarici tərəfdaşlıq. Hər iki istiqamət AMADA-nın strateji planında mühüm yer tutmuş, dopinqə qarşı mübarizənin təşkilati, elm-təhsil və təhqiqat aspektlərini əhatə etmişdir.

2024-cü il yerli əməkdaşlıq çərçivəsində AMADA üçün çoxşaxəli tərəqqi ili kimi yadda qalmışdır. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, Milli Olimpiya Komitəsi, Milli Paralimpiya Komitəsi, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası (ASAPES), Olimpiya və qeyri-Olimpiya idman növləri üzrə federasiyalar, regional idman və digər dövlət qurumları ilə sıx əməkdaşlıq  qurulmuşdur.

## Antidopinq fəaliyyəti üzrə institusional əməkdaşlıq

- Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi
- Azərbaycan Respublikasının Milli Olimpiya Komitəsi
- Azərbaycan Respublikasının Milli Paralimpiya Komitasi
- Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi
- Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi
- Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi
- Azərbaycan Respublikasının Dövlət Təhlükəsizlik Xidməti
- Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti
- Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi
- Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi
- Azərbaycan Respublikasında İnterpolun Milli Mərkəzi Bürosu
- Azərbaycan İdman Akademiyası

# Əməkdaşlıq: beynəlxalq

Avropa Şurası (CoE)

Ümumdünya Antidopinq Agentliyi (WADA)

UNESCO

Milli Antidopinq Təşkilatları İnstitutu (iNADO)

2024-cü ildə AMADA bir sıra nüfuzlu beynəlxalq qurumlarla əməkdaşlıq qurmuş və birgə təşəbbüslərə imza atmışdır. Bunlara WADA, Council of Europe (CAHAMA, T-DO, T-DO Education, T-DO Legal Issues), UNESCO, Milli Antidopinq Təşkilatları İnstitutu (iNADO), CEADO, NADA Germany, POLADA , JADA, TDMK və digər milli antidopinq təşkilatları aiddir. 2024-cü ilin fevral ayında Bakı və Quba şəhərlərində keçirilmiş "Olimpiya çempionluğuna doğru: Təmiz idmanda milli və qlobal baxışlar" adlı elmi-praktiki konfranslar, dekabr ayında isə Bakıda təşkil olunan “Təmiz qələbə: Olimpiya ilinə yenidən baxış” adlı beynəlxalq konfrans və “Strateji tərəfdaşlıq: Qlobal antidopinq təşəbbüslərinin inkişafı üçün əməkdaşlıq” mövzusunda dəyirmi masanın keçirilməsi AMADA-nın xarici əməkdaşlıq istiqamətində yeni uğurlar qazanmasına geniş imkanlar açmışdır. Belə ki, ABŞ, Almaniya, Avstriya, Birləşmiş Krallıq, Danimarka, Fransa, Polşa, Yaponiya, Yunanıstan, Türkiyə və digər ölkələrin ekspert və alimlərinin iştirakı ilə təcrübə mübadiləsi aparılmış, dopinqlə mübarizə sahəsində birgə təşəbbüslərin əhəmiyyəti vurğulanmışdır.

Dekabrın 17-də Bakıda keçirilən “Strateji tərəfdaşlıq: Qlobal antidopinq təşəbbüslərinin inkişafı üçün əməkdaşlıq” mövzusunda beynəlxalq dəyirmi masa çərçivəsində AMADA ilə NADA Germany arasında Anlaşma Memorandumu imzalanmışdır.

Beynəlxalq Test Agentliyi (ITA)

Berlinger Special

PWC GmbH

Almaniya

Avstriya

Birləşmiş Krallıq

Polşa

Türkiyə

Yaponiya

Yunanıstan

# Əməkdaşlıq: beynəlxalq




AMADA ilə NADA Germany arasında
Anlaşma Memorandumunun
imzalanma mərasimi




iNADO-nun illik
Baş Assambleyası



Avropa Şurasının Antidopinq Konvensiyası
üzrə T-DO Monitorinq Qrupunun Hüquqi
məsələlər üzrə Məsləhətçi Qrupunun iclası




WADA-nın 2024-cü il
üçün illik simpoziumu



WADA-nın 2024-cü il
Qlobal Təhsil Konfransı




CAHAMA-nın
63-cü iclası

# TESTETMƏ

2024-cü ildə antidopinq qaydalarına uyğun şəkildə testlərin aparılması, risk qiymətləndirilməsi və Test Bölüşdürmə Planının (TBP) həyata keçirilməsi istiqamətində geniş fəaliyyət göstərilmişdir. İl ərzində testlərin səmərəli planlaşdırılması üçün müxtəlif idman növlərində risk dəyərləndirilməsi aparılmış, Olimpiya, Paralimpiya və qeyri-Olimpiya idman növləri üzrə test proqramı icra olunmuşdur.




**2024-cü il ərzində**
# 1300 Test




İl ərzində 1300 test həyata keçirilmişdir ki, bunlardan 661-i yarış müddətində, 639-u isə yarışdan kənar testlər olmuşdur. Testlərin bölgüsü müxtəlif idman növlərinə əsasən həyata keçirilmiş və prioritet idman növləri müəyyən edilmişdir.

Testlərin aparıldığı idman növləri arasında atletika, üzgüçülük, boks, cüdo, karate, ağır atletika, güləş və taekvondo üstünlük təşkil etmişdir. Paralimpiya və qeyri-Olimpiya idman növləri üzrə testlər də mütəmadi olaraq həyata keçirilmişdir.

## Test Bölüşdürmə Planı və testlərin aparılması

Testlərin səmərəli və mütənasib bölüşdürülməsi məqsədilə TBP hazırlanmış, yarış və yarışdan kənar testlər icra olunmuşdur.

**1497** **Ümumi Nümunə Sayı**




**30** **İdman Növü**

**56** **Alt İdman Növü**

AMADA
STAY CLEAN

# Milli və beynəlxalq çempionatlarda testlər

AMADA 2024-cü il ərzində Azərbaycan çempionatları və digər milli idman yarışlarında test proqramını həyata keçirmişdir. Bu çərçivədə atletika, üzgüçülük, boks, güləş, cüdo, voleybol, basketbol, stolüstü tennis, karate və digər idman növləri üzrə milli çempionatlarda dopinq nəzarəti aparılmışdır.

Beynəlxalq əməkdaşlıq çərçivəsində AMADA beynəlxalq federasiyalar və testetmə təşkilatlarının sifarişi ilə dopinq nəzarəti testləri həyata keçirmişdir. 2024-cü ildə Azərbaycanın ev sahibliyi etdiyi beynəlxalq yarışlarda – U-23 Güləş üzrə Avropa Çempionatı, Judo Grand Slam Baku 2024, IBA Champions' Night və digər yarışlarda nümunə toplama prosesi uğurla icra olunmuşdur.



## Testlərin bölgüsü




**16** nəfər **Nümunə Toplama Heyəti**

# İdmançı Bioloji Pasportu və qan nümunələrinin toplanması

2024-cü ildə ümumilikdə, 180 qan nümunəsi götürülmüşdür. Belə ki, WADA-nın TDSSA texniki sənədinə uyğun olaraq, idmançıların hematoloji profilini yaratmaq üçün İdmançı Bioloji Pasportu (İBP) üzrə nümunələr toplanmışdır. İl ərzində müxtəlif idman növləri üzrə 34 İBP nümunəsi götürülmüşdür. Əsasən üzgüçülük, boks, velosiped idmanı, güləş, avarçəkmə və kikboksinq idmançılarından nümunələr toplanmışdır. Bundan əlavə, 146 serum nümunəsi də götürülmüşdür.

Xarici ölkələrdə məşq və yarışlara qatılan Azərbaycan idmançılarının test edilməsi üçün beynəlxalq antidopinq təşkilatları ilə əməkdaşlıq çərçivəsində nümunələrin toplanması sifariş edilmişdir. Almaniya, Belçika, İtaliya, Fransa, Rusiya, Serbiya və Malayziyada testlər icra olunmuşdur.





# Qeydiyyata Alınmış Test Qrupu (QTQ) və məkan məlumatı idarəçiliyi

**Qeydiyyata alınmış Test Qrupu (QTQ)** — milli və ya beynəlxalq səviyyəli idmançıların yarışdan kənar müddətdə dopinq nəzarəti prosesinə cəlb olunması üçün məkan məlumatı təqdim etmək öhdəliyi olan xüsusi bir qrupdur. Bu qrupa daxil olan idmançılar ADAMS sistemi vasitəsilə öz yaşayış ünvanlarını, məşq cədvəllərini, yarış/tədbir proqramlarını və ən əsası test üçün əlçatan olan bir saatlıq zaman pəncərəsi təqdim etməlidirlər. QTQ-nin əsas məqsədi bu idmançıların istənilən vaxt test edilə bilməsini təmin etməkdir.

**Məkan məlumatı** — dopinq nəzarəti prosesinin planlaşdırılması və icrası üçün QTQ-yə daxil olan idmançılar tərəfindən təqdim edilən şəxsi və gündəlik məkan məlumatıdır. Bu məlumatlar idmançının dopinq nəzarəti prosesinə əlçatanlığını təmin etmək üçün istifadə olunur.

**44 QTQ**
**idmançı**

## Məkan məlumatına aşağıdakılar daxildir:

- Gecələdiyi əsas ünvan
- Məşq, iş və təhsil fəaliyyətlərinin məkan və vaxtı
- Yarış və təlim düşərgələrinin planı
- Dopinq nəzarəti prosesi üçün əlçatan olan bir saatlıq zaman pəncərəsi
- Əlaqə vasitələri: telefon və e-poçt
- Bu məlumatların dəqiq və vaxtında təqdim edilməsi idmançının antidopinq qaydalarına uyğun davranışının əsas göstəricisidir.

İdmançıların dopinq nəzarəti prosesinə riayət etməsi üçün AMADA Qeydiyyata Alınmış Test Qrupuna (QTQ) nəzarət etmişdir. 2024-cü ildə QTQ-yə 44 idmançı daxil edilmişdir ki, bunlardan 31-i Olimpiya, 8-i Paralimpiya, 5-i isə qeyri-Olimpiya idman növlərində çıxış etmişdir. Bu idmançılar üçün məkan məlumatı təlimləri keçirilmiş və ADAMS sistemində məlumat yenilənməsi təmin olunmuşdur.



AMADA
STAY CLEAN

## Qeydiyyata Alınmış Test Qrupu

**44** Nəfər

**31** Olimpiya İdman Növü

**5** Qeyri-Olimpiya İdman Növü

**8** Paralimpiya İdman Növü

**28** Kişi

**16** Qadın

AMADA
STAY CLEAN

# NƏTİCƏLƏRİN EMALI VƏ TƏHQİQAT

2024-cü ildə nəticələrin emalı və təhqiqat istiqaməti üzrə antidopinq qaydalarının icrası, pozuntu hallarının araşdırılması və idmançılarla bağlı hüquqi proseslərin aparılması istiqamətində geniş fəaliyyət göstərilmişdir. Səhiyyə Nazirliyinin nəzdində fəaliyyət göstərən İntizam, Apelyasiya və Terapevtik İstifadəyə İcazə komitələrinin fəaliyyətinə dəstək, hüquqi çərçivənin möhkəmləndirilməsi və məlumatların operativ emalı istiqamətində bir sıra tədbirlər həyata keçirilmişdir.

## İntizam və hüquqi nəzarət

Antidopinq komitələrinin fəaliyyətinin dəstəklənməsi məqsədilə hüquqi və texniki dəstək göstərilmiş, komitə üzvlərinə antidopinq qanunvericiliyi barədə məlumatlar təqdim olunmuşdur. Bütün müraciətlər və sorğular operativ şəkildə cavablandırılmışdır. Bu çərçivədə ATF (“atypical finding” – atipik nəticə) işləri yenidən nəzərdən keçirilmiş, qeydiyyata alınmış bütün işlər vahid reyestrə daxil edilmişdir.

Əvvəlki illərə dair açılmış bütün işlərin yekunlaşdırılması, AQP və məkan məlumatı pozuntuları ilə bağlı WADA-ya hesabatların təqdim olunması təmin edilmişdir. UNESCO Konvensiyasına və WADA Məcəlləsinə dəyişikliklərlə bağlı AMADA-nın rəsmi şərhləri hazırlanaraq təqdim olunmuşdur.

## 11 Antidopinq Qayda Pozuntusu



1. Mövcudluq



2. İstifadə və ya istifadə cəhdi




3. Yayınma, imtina və ya nümunəni təqdim etməmə



4. Məkan məlumatı pozuntuları



5. Saxtalaşdırma



6. Sahiblik



7. Dövriyyə



8. İdmançıya tətbiq etmə



9. Əlbirlik və ya əlbirlik cəhdi



10. Qadağan edilmiş əməkdaşlıq



11. Yayındırma və ya qisas

# Araşdırma və sanksiyalar

2024-cü il ərzində **8 yeni** antidopinq qayda pozuntusu qeydə alınmışdır.

» **2 iş** - İdmançının nümunəsində qadağan edilmiş maddə aşkarlanması

» **4 iş** - Qadağan olunmuş maddə və ya üsuldan istifadə

» **1 iş** - Nümunə təqdim etməkdən imtina

» **1 iş** - Dopinq nəzarəti prosesini saxtalaşdırma cəhdi

Buna baxmayaraq, AMADA 2024-cü il ərzində daha çox antidopinq qayda pozuntusunun araşdırılması ilə məşğul olmuş və öncəki illərdə başlamış bir çox işi yekunlaşdırmışdır.

Belə ki, 2024-cü il ərzində ümumilikdə **12** antidopinq qayda pozuntusu üzrə iş başa çatdırılmışdır.

Bunlardan **3** iş üzrə idmançılar müxtəlif səbəblərdən sanksiya almamış və işlərinə xitam verilmişdir.

**9** iş üzrə isə idmançılar müxtəlif müddətlərə diskvalifikasiya edilmişdirlər.

## Antidopinq qayda pozuntuları:

- **2** Boks
- **1** Atletika
- **1** Ağırlıqqaldırma
- **1** Cüdo
- **1** Güləş
- **1** Kikboksinq
- **1** Pauerliftinq
- **1** Taekvondo

**9** Ümumi Say



AMADA
STAY CLEAN

## Narkotik vasitələrə qarşı mübarizə

AMADA Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 25 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən, **"Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019–2024-cü illər üçün Dövlət Proqramı"**nın icraçılar siyahısına daxil edilmişdir. Proqram çərçivəsində AMADA mütəmadi olaraq maarifləndirici layihələr, təlimlər və məlumatlandırma kampaniyaları həyata keçirməklə, narkomaniyanın qarşısının alınmasına töhfə verib.




2024-cü il noyabır 29-da AMADA-nın təşkilatçılığı ilə Dövlət Proqramının yekununa həsr olunmuş və bir sıra aidiyyəti dövlət qurumlarının iştirak etdiyi **dəyirmi masa** keçirilmişdir. Tədbirdə dopinq və psixoaktiv maddələrə qarşı birgə mübarizə, ictimai maarifləndirmə və gənclərin qorunması istiqamətində fikir mübadiləsi aparılmış, bioloji fəallığa malik maddələrin nəzarət mexanizmləri müzakirə olunmuşdur. AMADA-nın apardığı sorğunun nəticələri və beynəlxalq əməkdaşlıq təşəbbüsləri də tədbirin diqqət mərkəzində olmuşdur.

# ELM, TİBB VƏ TƏHSİL

2024-cü ildə elm, tibb və təhsil istiqaməti üzrə antidopinq siyasətinin elmi əsaslarla inkişaf etdirilməsi, tibbi xidmətlərin tənzimlənməsi və idmançılar üçün maarifləndirmə fəaliyyətlərinin genişləndirilməsi istiqamətində mühüm işlər görülmüşdür. Fəaliyyət antidopinq qaydalarının təbliği, idmançıların hüquq və vəzifələrinin izahı və antidopinq elmi araşdırmalarının aparılması kimi sahələri əhatə etmişdir.

# Maarifləndirmə və təhsil fəaliyyətləri

2024-cü ildə müxtəlif maarifləndirmə tədbirləri həyata keçirilmişdir. Ümumilikdə 79 seminar, vebinar və təbliğat tədbiri təşkil olunmuşdur. Seminar və təlimlərdə 1571 iştirakçı, vebinarlarda 246 nəfər, təbliğat aksiyalarında 820 nəfər və müxtəlif tədbirlərdə 350 nəfər iştirak etmişdir. Eyni zamanda, ADEL Təlim Platformasında 87 nəfər kursu uğurla başa vurmuşdur. Ümumilikdə 3074 nəfər maarifləndirmə prosesinə cəlb olunmuşdur.

İdman federasiyaları və futbol klublarında çalışan həkimlər üçün antidopinq qaydalarına dair seminarlar keçirilmişdir. Bu seminarlar çərçivəsində federasiya həkimlərinə qadağan edilmiş maddələrin siyahısı, Tİİ prosesləri və dopinq nəzarət prosedurları haqqında məlumatlar təqdim olunmuşdur.



**79** Seminar, vebinar və təbliğat tədbiri

**3074** Maarifləndirmə prosesinə cəlb olunmuşdur

**1571** Seminar və təlimlərdə

**246** Vebinarlarda

**820** Təbliğat aksiyalarında

**350** Müxtəlif tədbirlərdə

**87** Onlayn kursda




# Mən təmiz idmanı sevirəm



## 2024-cü il ərzində AMADA tərəfindən həyata keçirilmiş mühüm layihələr

- ASA ilə birgə **1500-dən** çox tələbə arasında psixoaktiv maddələrin istifadəsi və sosial risk faktorlarına dair sosioloji **sorğu** aparılmışdır;

- **Regionlarda**, o cümlədən Füzuli, Göygöl, Qəbələ, Quba, Qusar, Mingəçevir, Suqovuşan, Sumqayıt, Şamaxı və digər bölgələrdə maarifləndirmə seminarları keçirilmiş, yerli idmançılarla birbaşa təmas qurulmuşdur;

- AMADA Avropanın Profilaktika üzrə Tədris Proqramını **(EUPC - European Union Prevention Curriculum)** Azərbaycan dilinə tərcümə edərək, bu prinsiplərin ölkədə adaptasiyası istiqamətində ilk addımları atmış, beynəlxalq profilaktika yanaşmaları ilə inteqrasiyanın əsasını qoymuşdur;

- AMADA-nın rəsmiləri Danimarkada keçirilən dopinq araşdırmaları üzrə beynəlxalq konfransda iştirak ediblər. Konfransda müasir **dopinq çağırışları**, gənc idmançılar arasında steroid istifadəsi və reabilitasiya üsulları müzakirə olunub. AMADA-nın icraçı direktorunun müavini Rüfət Efendiyev “Asılılığın hüdudlarını aşmaq: idman və reabilitasiyanın birləşməsi” mövzusunda məruzə ilə çıxış edərək, narkomaniya da daxil olmaqla, idmanın bərpa  prosesinə inteqrasiyası imkanları barədə məlumat verib. Tədbir çərçivəsində müxtəlif Avropa ölkələrinin antidopinq qurumlarının rəhbərləri ilə işgüzar görüşlər keçirilmiş, beynəlxalq əməkdaşlıq və tədqiqat strategiyaları müzakirə edilmişdir.

## Tİİ proseslərin idarə olunması

2024-cü ildə Tİİ üzrə 17 müraciət daxil olmuşdur. Bunlardan 3-ü təsdiqlənmiş, 4-ü imtina edilmiş, 9-u isə ehtiyac olmadığı üçün qəbul olunmamışdır. Eyni zamanda, idmançılar və federasiyalar tərəfindən daxil olan dərman sorğuları cavablandırılmışdır. “Paris-2024” Yay Olimpiya Oyunları ilə əlaqədar müxtəlif idman federasiyalarından daxil olan sorğular əsasında 349 dərman preparatı yoxlanılmışdır.

**Tİİ müraciətləri**




**Federasiyalar üzrə yoxlanan dərman preparatları sayı**






AMADA
STAY CLEAN

# Qadağan edilmiş maddələrin siyahısı

WADA-nın beynəlxalq standartlarından olan Qadağan Edilmiş Siyahı hər ilin 1 oktyabr tarixində yenilənərək rəsmi şəkildə dərc olunur. Bu siyahı idmançılar, onların köməkçi heyəti və digər maraqlı tərəflər üçün hansı maddə və üsulların idmanda istifadəsinin qadağan olunduğunu müəyyən edir. Siyahı həm yarış müddəti, həm də yarışdan kənar müddət üçün tətbiq edilən qadağaları əhatə edir və hər bir antidopinq proqramının əsasını təşkil edir.

AMADA siyahının və onu tamamlayan digər mühüm sənədlərin — Əsas dəyişikliklər sənədi, Monitorinq Proqramı, eləcə də Qlükokortikoid inyeksiyaları ilə bağlı rəhbəredici sənədin — Azərbaycan dilinə tərcüməsini təmin edir. Məqsəd bu məlumatların daha geniş kütləyə, xüsusilə də yerli idman mütəxəssislərinə və idmançılara daha əlçatan şəkildə çatdırılmasıdır.

Tərcümə prosesi tamamlandıqdan sonra bu sənədlər AMADA-nın rəsmi internet saytında paylaşılır, eyni zamanda bütün müvafiq idman federasiyalarına, ali idman qurumlarına və maraqlı tərəflərə rəsmi şəkildə göndərilir. Bu proses vasitəsilə idmanda dürüstlük və şəffaflıq prinsiplərinin qorunmasına və təmiz idman mühitinin gücləndirilməsinə töhfə verilir.


AMADA STAY CLEAN | WORLD ANTI-DOPING AGENCY play true

ÜMUMDÜNYA ANTİDOPİNQ MƏCƏLLƏSİ
BEYNƏLXALQ STANDART
QADAĞAN EDİLMİŞ SİYAHI
2025

Bu siyahı 1 Yanvar 2025-ci ildən qüvvəyə minir.



Beynəlxalq konfrans,
Bakı, 21 fevral, 2024-cü il



Beynəlxalq konfrans,
Quba, 23 fevral, 2024-cü il

## AMADA-nın Olimpiya ilinə töhfəsi

2024-cü il strateji baxımdan AMADA-nın tarixində dönüş nöqtələrindən biri kimi qiymətləndirilə bilər. Bu, təmiz idmanın təbliği və dopinqə qarşı mübarizə sahəsində AMADA-nın elm, təhsil və sistemli yanaşmaya sadiqliyini tam aşkar əks etdirən Olimpiya ili idi.

İlin əvvəlində antidopinq elminin inkişafına töhfə vermək məqsədilə iki böyük beynəlxalq elmi-praktik konfrans təşkil edilmişdir. Fevralın 21-də Bakı və iki gün sonra isə 2024-cü il üçün "İdman Paytaxtı" seçilmiş Quba şəhərlərində keçirilən "Olimpiya çempionluğuna doğru: Təmiz idmanda milli və qlobal baxışlar" adlı beynəlxalq elmi-praktik konfranslarda antidopinq qaydalarının tətbiqi, qlobal standartların rolu və idmançılara dəstəyin gücləndirilməsi mövzuları müzakirə olunmuşdur.

Hər iki konfransa, ümumilikdə, 300-ə yaxın iştirakçı qatılıb. İştirakçılar sırasında Avstriya Milli Antidopinq Agentliyinin icraçı direktoru və CEADO-nun İdarə Heyətinin sədri **Michael Cepic**, HADA-nın rəhbəri **Grigorios Leon**, Böyük Britaniyanın Kent Universitetinin professoru **John Dickinson**, ABŞ-nin Arizona Dövlət Universitetinin nəzdində "Athleat Field Lab"ın direktoru **Floris Wardenaar**, Böyük Britaniyanın Liverpool John Murs Universitetinin idman nutrisioloqu **Jamie Pugh**, Böyük Britaniyanın London Kral Kollecinin alimi **Paulina Kloskowska**, WADA-nın İdmançıların insan hüquqları üzrə müstəqil baş eksperti **Snežana Samardžić-Marković** və digər alimlər yer alıblar.

AMADA
STAY CLEAN




Beynəlxalq konfrans,
Bakı, 16 dekabr, 2024-cü il

İlin sonunda - dekabrın 16-da Bakıda “Təmiz qələbə: Olimpiya ilinə yenidən baxış” adlı konfrans baş tutmuşdur. Tədbirə **WADA**, **CoE**, **UCL**, **ITA** və digər beynəlxalq və yerli təşkilatlardan 70-dən artıq iştirakçı qatılmış, antidopinq sahəsindəki mövcud çətinliklər və innovativ həll yolları müzakirə olunmuşdur. Tədbirin açılış mərasimində WADA-nın prezidenti **Witold Bańkanın** konfrans iştirakçılarına ünvanlanmış video müraciəti təqdim olunub.

Konfransa yüksək səviyyəli ekspertlərdən - WADA-nın Kəşfiyyat və Təhqiqatlar üzrə Direktoru **Günter Younger**, London Universitet Kollecinin (UCL) professoru **Mike Loosemore**, TDMK-nın baş direktoru **Rüştü Güner**, NADA Germany-nin İcraiyyə Şurasının sədri **Lars Mortsiefer** və POLADA-nın rəhbəri **Michał Rynkowski** və başqaları qoşulublar.

# AMADA-nın Olimpiya ilinə töhfəsi

2024-cü ilin sonuncu beynəlxalq tədbiri “Strateji müttəfiqlik: Əməkdaşlıq vasitəsilə qlobal antidopinq təşəbbüslərinin inkişafı” adlı beynəlxalq dəyirmi masa olub. Dekabrın 17-də keçirilmiş dəyirmi masada çıxış edən Azərbaycan Respublikasının gənclər və idman naziri **Fərid Qayıbov** tədbirin strateji əməkdaşlığın möhkəmləndirilməsi və təmiz idmanın təşviqi baxımından əhəmiyyətini xüsusi vurğulamışdır.

**Dəyirmi masada** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Səhiyyə Nazirliyi, Daxili İşlər Nazirliyinin nəzdində Azərbaycan Respublikasında İnterpolun Milli Mərkəzi Bürosu, Dövlət Təhlükəsizlik Xidməti, Dövlət Sərhəd Xidməti, Dövlət Gömrük Komitəsi və Qida Təhlükəsizliyi Agentliyinin rəsmi nümayəndələri iştirak ediblər.



Soldan sağa: Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin İdman şöbəsinin müdiri Elnur Məmmədov, professor Kolar Edvard, gənclər və idman naziri Fərid Qayıbov, AMADA-nın icraçı direktoru Təhminə Tağı-zadə, WADA-nın Kəşfiyyat və təhqiqatlar üzrə direktoru Günter Younger


wada
WITOLD BAŃKA
PRESIDENT OF WADA


wada



WADA-nın İdmançıların
insan hüquqları üzrə
müstəqil baş eksperti
Snežana Samardžić-Marković




TDMK-nın baş direktoru
Rüştü Güner




WADA-nın Kəşfiyyat və
Təhqiqatlar üzrə Direktoru
Günter Younger




Beynəlxalq konfrans,
Bakı, 16 dekabr, 2024-cü il




WADA-nın Kəşfiyyat və Təhqiqatlar üzrə Direktoru Günter Younger




London Kollec Universiteti (UCL) professoru Mike Loosemore




ITA-nın beynəlxalq əlaqələr üzrə baş meneceri Michael Ask




NADA Germany-nin İcraiyyə Şurasının sədri Lars Mortsiefer

# AMADA-nın 2024-cü ildə keçirdiyi beynəlxalq tədbirlərdən görüntülər




























# Beynəlxalq elmi-tədris təşəbbüslərində AMADA-nın rolu

## Milli Olimpiya komitələri üçün təmiz idman üzrə təlimat

AMADA "Paris-2024" Yay Olimpiya Oyunları ərəfəsində Milli Olimpiya komitələri üçün təmiz idman üzrə təlimatın hazırlanmasında yaxından iştirak etmişdir. Bu sənəddə AMADA-nın effektiv və interaktiv maarifləndirmə proqramlarının hazırlanması və həyata keçirilməsi sahəsində təcrübəsi, xüsusilə idman tədbirlərində təşkil olunan uğurlu maarifləndirmə fəaliyyəti nümunə kimi təqdim olunmuşdur. AMADA-nın bu sənəddə yer alması, agentliyin beynəlxalq miqyasda təmiz idman dəyərlərinin təşviqindəki liderliyini və qlobal təcrübə paylaşımına verdiyi töhfəni nümayiş etdirir.

## UEFA-da antidopinq təhsili ilə bağlı görüş

AMADA-nın UEFA tərəfindən təşkil olunan antidopinq təhsili tədbirində iştirakı idmanda dürüstlük və təmiz rəqabət prinsiplərinin beynəlxalq səviyyədə qorunmasına verdiyi töhfənin bariz nümunəsidir. Bu cür tədbirlər təhsil vasitəsilə antidopinq mesajlarının daha təsirli şəkildə çatdırılması, beynəlxalq təcrübələrin öyrənilməsi və innovativ yanaşmaların paylaşılması baxımından olduqca vacibdir. AMADA üçün bu iştirak yalnız bilik mübadiləsi deyil, eyni zamanda mövcud təhsil proqramlarının gücləndirilməsi və yeni əməkdaşlıq imkanlarının yaranması deməkdir.

## ITA üçün təlim

AMADA ITA-nın Təhsil departamenti üçün xüsusi vebinar təşkil etmişdir. Vebinarda AMADA tərəfindən antidopinq təhsili sahəsində istifadə oluna biləcək innovativ süni intellekt alətləri təqdim edilmiş, onların necə tətbiq olunması və təhsil prosesinin fərdiləşdirilməsi istiqamətində potensialı izah olunmuşdur. Bu təşəbbüs AMADA-nın texnoloji yeniliklərə açıq yanaşmasının və qlobal təhsil sistemində qabaqcıl rolunun daha bir göstəricisi olmuşdur.

## İNADO üçün təlim

Agentlik antidopinq maarifləndirilməsində süni intellektin tətbiqi üzrə beynəlxalq müzakirələrin önündə yer alaraq, iNADO üzvləri üçün “Antidopinq maarifləndirilməsində süni intellekt: Təhsilin transformasiyası” adlı vebinar təşkil etmişdir. Vebinarda süni intellektin təhsil sahəsində istifadəsi, bu texnologiyanın potensialı, qarşıya çıxan çətinliklər və effektiv istifadəyə dair praktiki yanaşmalar müzakirə olunmuşdur. AMADA-nın bu təşəbbüsü agentliyin qlobal təcrübə paylaşımına verdiyi töhfənin və süni intellektə əsaslanan innovativ yanaşmaların təşviqindəki liderliyinin göstəricisidir.

## Data analitikası və süni intellektin tətbiqi üzrə beynəlxalq işçi qrupu

AMADA antidopinq sahəsində data analitikası və süni intellektin tətbiqi üzrə beynəlxalq əməkdaşlığın gücləndirilməsi məqsədilə yaradılmış xüsusi işçi qrupunun üzvü olmuşdur. Bu təşəbbüs WADA, UKAD, Sport Integrity Australia, USADA, ITA, iNADO və digər aparıcı qurumların iştirakı ilə formalaşdırılmışdır. AMADA-nın bu qrupda təmsil olunması agentliyin innovativ yanaşmalara açıq olduğunu, qabaqcıl təcrübələrin öyrənilməsi və tətbiqi, eləcə də qlobal səviyyədə koordinasiyalı fəaliyyətə töhfə vermək əzmini nümayiş etdirir. İşçi qrupu tərəfindən süni intellekt, data analitikası və idarəetmə çərçivələri üzrə ortaq həll yolları hazırlanır və AMADA bu prosesin fəal iştirakçılarından biridir.




İslandiyada Avropa Şurasının Antidopinq Konvensiyasının Təhsil üzrə Məsləhətçi Qrupunun iclası



Türkiyənin Hacettepe Universitetinin İdman elmləri fakültəsində görüş




Fransada WADA-nın Qlobal Təhsil Konfransı




Böyük Britaniyadakı Loughborough Universitetində data analitikası üzrə tədbir



UEFA-nın antidopinq təhsili üzrə tədbiri

# MEDİA VƏ İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏR

2024-cü ildə media və ictimaiyyətlə əlaqələr istiqaməti üzrə AMADA-nın fəaliyyətinin geniş ictimaiyyətə çatdırılması, antidopinq siyasətinin media vasitəsilə təbliği və ictimai məlumatlandırma istiqamətində intensiv iş aparılmışdır. Həmçinin yerli və beynəlxalq media ilə əməkdaşlıq gücləndirilmişdir.

# Antidopinq siyasətində medianın rolu

Fevral ayında təşkil edilən “Olimpiya çempionluğuna doğru: Təmiz idmanda milli və qlobal baxışlar” adlı beynəlxalq konfrans AZTV, İdman TV, CBC Sport, ATV, Space TV, ARB TV, Real TV, Xəzər TV və Baku TV kanallarında işıqlandırılmışdır. Konfransla bağlı məlumatlar, həmçinin AZƏRTAC, Report, SİA xəbər agentlikləri və bir sıra özəl informasiya portallarında yayımlanmışdır. Beynəlxalq media çərçivəsində dünyanın ən böyük idman portalı olan “Insidethegames.biz” bu tədbirə geniş yer ayırmışdır. Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA) saytında da konfransa dair material dərc edilmişdir.

Dekabr ayında keçirilən “Təmiz qələbə: Olimpiya ilinə yenidən baxış” adlı beynəlxalq konfrans da geniş media əhatəsi qazanmışdır. Yerli televiziya kanallarında konfransla bağlı süjetlər yayımlanmış, AZƏRTAC tərəfindən 5 video və 8 xəbər hazırlanmış, xəbərlər Azərbaycan, rus və ingilis dillərində dərc olunmuşdur.

AMADA Göygöl rayonunda təşkil olunan III Milli Yaylaq Festivalında xüsusi stendlə təmsil olunmuşdur. Burada antidopinq sistemi və qadağan edilmiş maddələrin insan sağlamlığına təsiri ilə bağlı geniş məlumatlandırma aparılmışdır. Festival iştirakçıları narkomaniyanın fəsadları və təmiz idmanın əhəmiyyəti barədə maarifləndirilmişdir.




**Fərid Qayıbov**
Azərbaycan Respublikasının gənclər və idman naziri



**İlham Zəkiyev**
İkiqat Paralimpi çempionu



**Fəridə Əzizova**
Dünya və Avropa çempionatlarının mükafatçısı



**Rüstəm Orucov**
Olimpiya Oyunlarının gümüş mükafatçısı

# Ədalətli idman həftəsi – 2024

WADA 2024-cü il 19 aprel tarixini dünyada Ədalətli İdman Günü elan edib. Təmiz idman dəyərlərinə həsr olunan Ədalətli İdman Günü dopinqə qarşı qlobal mübarizə haqqında idmançılar, idman ictimaiyyəti və digərləri üçün məlumatlandırma məqsədi daşıyır.

WADA-nın təşəbbüsünə qoşulan AMADA 2024-cü il 15-21 aprel tarixlərini əhatə edən dövrü ölkəmizdə “Ədalətli idman həftəsi” elan edib və idman ictimaiyyətini bu günlə bağlı məlumatlandırıb. WADA hər il müxtəlif şəkildə qeyd olunan Ədalətli İdman Gününün 2024-cü ildə rəqəmsal platformalar vasitəsilə təbliğ edilməsi üçün çağırış edib.

“Ədalətli idman həftəsi” ərzində AMADA-nın müxtəlif sosial media kanallarında bu günlə bağlı paylaşımlar edilib, idman ictimaiyyətinin tanınmış simalarının fikirlərini əks etdirən videoçarxlar hazırlanıb, KİV-də silsilə yazılar dərc olunub, televiziya kanallarında isə süjetlər efirə verilib. AMADA-nın paylaşdığı bütün postlar WADA-nın Ədalətli İdman Günü ilə bağlı hazırladığı sosial media lövhəsində yer alıb.




AMADA-nın sosial media platformalarında müntəzəm paylaşımlar edilib, müxtəlif interaktiv müsabiqələr təşkil olunub, antidopinq seminar və maarifləndirmə proqramları geniş şəkildə işıqlandırılıb.

Beynəlxalq əməkdaşlıq çərçivəsində WADA tərəfindən təşkil olunan vebinarlarda iştirak təmin edilmişdir. Bu vebinarlarda media strategiyası, idman jurnalistləri ilə əməkdaşlıq və beynəlxalq təcrübə üzrə fikir mübadiləsi aparılmışdır.

Paris 2024 Yay Olimpiya Oyunları zamanı AMADA idmançılarımızın uğurlarını əks etdirən videoçarxlar hazırlamış, sosial şəbəkələrdə müsabiqələr təşkil etmiş və idmançılarla bağlı uğur hekayələrini paylaşmışdır. Paralimpiya Oyunları zamanı da analoji fəaliyyətlər davam etdirilmişdir.

# Beynəlxalq foto müsabiqə

**27**
Ölkə

**53**
Fotoqraf

**205**
Foto

Olimpiya ili çərçivəsində AMADA və “Gilavar Foto Klubu”nun birgə təşkilatçılığı ilə “Olimpiya ruhu: Qələbə və məğlubiyyətdən kənar” adlı beynəlxalq foto müsabiqə keçirilib. Müsabiqənin məqsədi 2024-cü - Olimpiya və Paralimpiya ilində təmiz idman dəyərlərinin və ədalətli idman mübarizəsinin fotolar vasitəsilə geniş ictimaiyyətə çatdırmaq olub. Müsabiqə Beynəlxalq Bədii Fotoqraflar Assosiasiyasının (IAAP) qaydaları əsasında baş tutub.

Müsabiqəyə 27 ölkədən 53 fotoqraf tərəfindən 205 foto göndərilib. Müxtəlif nominasiyalar üzrə 25 fotoya mükafat təqdim edilib.



## IAAP qızıl medal

Ahmad Iskandar Kamaruzaman (Malaysia)




## IAAP gümüş medal

Anvar Ilyasov (Uzbekistan)




## IAAP bürünc medal

Naib Ahmadov (Azerbaijan)

**Tamaşaçı rəğbəti qazanmış şəkil**



**IAAP diplom**
Antonino Caldarella (Italy)



**IAAP diplom**
Anna Perevozchikova (Russia)



**IAAP diplom**
Chun Woo Lee (South Korea)




**Gilavar qızıl medal**
Mohamed Kaouche (Algeria)




**Gilavar gümüş medal**
Masoud Shahrestani (Iran)



**Gilavar bürünc medal**
Michal Svitok (Slovakia)



AMADA
STAY CLEAN




**Gilavar lent mükafatı**
Laurent Bagnis (France)




**Gilavar lent mükafatı**
Majid Zeynalzadeh (Iran)




**Gilavar lent mükafatı**
Mustafa Ciftci (Turkiye)




**Gilavar lent mükafatı**
Stefan Stuppnig (Austria)




**Gilavar lent mükafatı**
Abdullo Fayzullayev (Uzbekistan)



**Gilavar lent mükafatı**
Peng Wang (China)



**Gilavar diplom**
Nikos Karanikolas (Greece)



**Gilavar diplom**
Nurgali Zhumagazy (Kazakhstan)



**Gilavar diplom**
Zaur Mustafayev (Azerbaijan)



**Gilavar diplom**
Mohammad Sadegh Nikgostar (Iran)




**Gilavar diplom**
Amir Kholousi (Iran)



**Gilavar diplom**
Aytaç Ünal (Turkiye)




**Gilavar diplom**
Dilavar Najafov (Azerbaijan)

AMADA
STAY CLEAN



**Gilavar diplom**
Meirzhan Amangeldiyev (Kazakhstan)



**Gilavar diplom**
Mihail Damyanov (Bulgaria)



**Gilavar diplom**
Dmitrii Cheliapin (Russia)




## Ənənəvi və sosial media ilə iş

2024-cü ildə AMADA-nın media siyasətinin effektiv icrası təmin edilmiş, sosial və ənənəvi media üzərindən geniş informasiya paylaşımları həyata keçirilmişdir.

Sosial media platformalarında 185 paylaşım edilmiş, bunlardan 42-si video formatında olmuşdur. Eyni zamanda, 5 müsabiqə keçirilərək qaliblər mükafatlandırılmışdır. 34 press-reliz hazırlanaraq KİV-də yerləşdirilmiş və 130-dan çox informasiya paylaşımı həyata keçirilmişdir.

| 185 | 42 | 5 | 34 |
| --- | --- | --- | --- |
| Paylaşım | Video | Müsabiqə | Press-reliz |

# AMADA-nın fəaliyyəti KİV-də




















# İNFORMASİYA TEXNOLOGİYALARI VƏ TƏHLÜKƏSİZLİYİ

2024-cü ildə Agentliyin rəqəmsal infrastrukturunun təkmilləşdirilməsi, informasiya təhlükəsizliyinin gücləndirilməsi və texnoloji yeniliklərin tətbiqi sahəsində mühüm işlər görülmüşdür. Həmçinin əsas diqqət elektron sənəd dövriyyəsinin yaradılmasına, e-learning (LMS) platformasının qurulmasına, kibertəhlükəsizlik tədbirlərinin gücləndirilməsinə və Agentliyin fəaliyyət istiqamətləri üzrə innovativ yanaşmaların tətbiqinə yönəlmişdir.

# Mərkəzləşdirilmiş Elektron Sənəd Dövriyyəsinin tətbiqi

2024-cü ilin birinci rübündən etibarən agentlik daxilində Mərkəzləşdirilmiş Elektron Sənəd Dövriyyəsi (ESD) sisteminin mərhələli tətbiqinə başlanılmışdır.

İlkin mərhələdə proqram təminatı mövcud daxili server infrastrukturu üzərində yerləşdirilərək tam funksional əməliyyat mühitində işə salınmışdır.

İkinci rüb ərzində istifadəçilərin sistemə adaptasiyasını təmin etmək məqsədilə ESD-nin səkkiz əsas daxili iş prosesini əhatə edən 15-ə yaxın sınaq və praktiki təlim sessiyası həyata keçirilmişdir.

İyun ayında sistemin beta versiyası istifadəyə təqdim edilmiş və keçid prosesində ənənəvi kağız əsaslı sənəd dövriyyəsi ilə yanaşı, elektron sənəd mübadiləsi paralel şəkildə tətbiq edilmişdir.

Bu hibrid yanaşma istifadəçilərin yeni sistemə mərhələli uyğunlaşmasını dəstəkləmişdir.

**I rüb** — Serverə yerləşdirmə

**II rüb** — Təlimlər

**İyun** — Beta + Hibrid keçid

## Mərkəzləşdirilmiş Elektron Sənəd Dövriyyəsinin tətbiqi

Avqust ayından etibarən növbəti mərhələyə – **ESD** sisteminə keçidə hazırlıq tədbirlərinə başlanılmışdır. Bu mərhələdə performans və informasiya təhlükəsizliyi tələbləri kontekstində server və şəbəkə infrastrukturu yenidən konfiqurasiya olunmuş, texniki imkanlar isə funksional ehtiyaclara uyğunlaşdırılmışdır.

Sentyabr ayı ərzində mərkəzləşdirilmiş elektron sənəd dövriyyəsi sisteminin tətbiqi üzrə təşkilati struktur bölmələrin və rəhbər heyətin spesifik ehtiyaclarını nəzərə alan 9 təlim sessiyası təşkil olunmuşdur.

01 oktyabr 2024-cü il tarixindən etibarən agentlik üzrə sənəd dövriyyəsinin tam şəkildə elektron formata keçirilməsi təmin edilmişdir.

**Avqust** — Şəbəkə + Server optimizasiya

**Sentyabr** — Rəhbərlik üçün təlimlər (9 sessiya)

**01 Oktyabr** — Tam elektron keçid



AMADA
STAY CLEAN

## “Paris-2024” Yay Olimpiya Oyunlarına hazırlıq çərçivəsində antidopinq maarifləndirmə təşəbbüslərinin bir sıra innovativ həlləri təmin edilmişdir:

### Paris2024.amada.az antidopinq məlumat portalının istifadəyə verilməsi

Bu portal idmançılar, məşqçilər və digər maraqlı tərəflər üçün antidopinq sahəsində fundamental bilikləri interaktiv formatda təqdim edən mərkəzi bir resurs kimi xidmət etmişdir. Azərbaycan və ingilis dillərində fəaliyyət göstərən portalda qadağan edilmiş maddələrin siyahısı, dopinq nəzarəti prosedurları, Tİİ, maarifləndirici videoçarxlar, aktual xəbərlər və tez-tez verilən suallar (FAQ) bölmələri mövcuddur. Portalın dizaynı istifadəçi mərkəzli yanaşma əsasında qurulmuş və Ümumdünya Antidopinq Agentliyinin (WADA) beynəlxalq tələblərinə uyğunlaşdırılmışdır.

### Süni intellekt əsaslı chatbotun inteqrasiyası

“Paris-2024” Yay Olimpiya Oyunları zamanı və oyunlara hazırlıq dövründə idmançıların antidopinqlə bağlı operativ və fərdiləşdirilmiş məlumat təminatını təmin etmək məqsədilə süni intellektə əsaslanan chatbot prototipi hazırlanmışdır. Bu innovativ həll WADA-nın normativ sənədləri əsasında qurulmuş bilik bazası ilə təchiz edilmişdir. Chatbot süni intellekt ilə canlı dəstək funksionallığını birləşdirən hibrid xidmət mexanizmi kimi dizayn edilmişdir. İlkin testlər sistemin cavablandırma sürəti və məzmun dəqiqliyinin qənaətbəxş olduğunu göstərsə də, hüquqi və xüsusi halların idarə olunmasında məlumatların kontekstual adekvatlığını təmin etmək üçün əlavə təkmilləşdirmələr tələb olunmuşdur.

### Telegram botunun tətbiqi

Antidopinq biliklərinin mobil və sürətli şəkildə yayılmasını təmin etmək məqsədilə Telegram platforması üzərindən bot hazırlanmışdır. Bu bot vasitəsilə istifadəçilər dopinqə dair qaydalar, maddə siyahıları və FAQ bölmələri üzrə operativ məlumat əldə edə bilmişlər. Sistem real vaxt rejimində cavab təqdim etmək qabiliyyətinə malikdir və Telegram API ilə tam inteqrasiya olunmuş funksional interfeysə sahibdir. Bu sual-cavab modeli istifadəçi suallarını sistematik şəkildə emal edərək onların məlumat ehtiyaclarını qarşılamışdır.

Nəticə olaraq, bu təşəbbüslər antidopinq siyasətinin kommunikativ effektivliyinin artırılmasında, biliklərin rəqəmsal platformalar üzərindən yayılmasında və maraqlı tərəflərin maarifləndirilməsi prosesində strateji rol oynamışdır. Gələcəkdə bu sistemlərin funksionallığının artırılması və istifadəçi davranışlarına uyğunlaşdırılması üçün yeni texnoloji alətlərin inteqrasiyası planlaşdırılır.

# E-learning platformasının tətbiqi

**E-learning** platformasının hazırlanması prosesinə start verilmişdir. Platforma idmançılar, məşqçilər və digər maraqlı tərəflərin antidopinq sahəsində davamlı maariflәndirilməsi prosesini sistemli şəkildə dəstəkləmək məqsədilə nəzərdə tutulmuşdur.

İlkin mərhələdə sistemin iki moduldan ibarət test versiyası hazırlanmış və Agentlik daxilində istifadəçi sınaqları üçün təqdim edilmişdir. Bu mərhələdə platformanın ilkin modulları **e-learning.amada.az** domeni üzərindən istifadəçi testləri üçün hazır edilmişdir.

Təlim imkanlarının və istifadəçi interfeysinin effektivliyini nümayiş etdirmək məqsədilə platformada nümunəvi demo kurs hazırlanmış və testlər bu kurs vasitəsilə həyata keçirilmişdir.

Növbəti mərhələdə platformanın funksional imkanlarının daha da genişləndirilməsi, yeni modulların əlavə edilməsi, platformanın bütün hədəf auditoriya üçün tam istifadəyə verilməsi, eyni zamanda innovativ təhsil alətlərinin tətbiqi planlaşdırılır.

**Platforma hazırlanır**

**Demo kurs + 2 modul**

**e-learning.amada.az**

**Yeni modullar + İstifadəyə verilmə**

Beynəlxalq konfransa hazırlıq çərçivəsində ayrıca portal **(conference.amada.az)** hazırlanmışdır. Bu platforma iştirakçıların qeydiyyatını sadələşdirmiş və tədbirin proqramı, spikerlər haqqında məlumatlar, təqdimat materiallarına rahat çıxışı təmin etmişdir. Eyni zamanda, **"Olimpiya ruhu: Qələbə və məğlubiyyətdən kənar"** adlı beynəlxalq foto-müsabiqənin dəstəklənməsi məqsədilə səsvermə modulu istifadəyə verilmişdir. Konfransın müxtəlif bölmələri üçün fərdi QR kodlar, spikerlərə və tədbir gündəliyinə operativ çıxış imkanı yaradılmışdır.

Texnoloji inkişafla paralel olaraq, Agentlik informasiya təhlükəsizliyi siyasəti və əməliyyat prosedurlarının ilkin layihələndirilməsinə başlamışdır. Bu sənədlər təşkilatın informasiya aktivlərinin məxfiliyinin, bütövlüyünün və əlçatanlığının təmin olunması üzrə əsas prinsipləri müəyyənləşdirir. Onlar internet resurslarından, korporativ e-poçt xidmətlərindən, mobil cihazlardan və uzaqdan iş rejimindən təhlükəsiz istifadə üçün göstərişləri əhatə edir. Bütün bu təşəbbüslər təşkilatda davamlı və çevik təhlükəsizlik mühitinin formalaşdırılması istiqamətində sistemli və siyasətə əsaslanan yanaşmanı nümayiş etdirir.



» Fransanın AFNOR şirkəti tərəfindən ISO 9001:2015 üzrə 24 sentyabr 2024-cü il tarixli sertifikasiya

## Yaşıl ofis: elektron sənəd dövriyyəsi

» Elektron kağızsız dopinq nəzarəti sisteminin istifadə edilməsi (MODOC)

» ESD - Mərkəzləşdirilmiş Elektron Sənəd Dövriyyəsi

» Tullantıların çeşidlənməsi

» Plastik qabların istifadə edilməməsi və təkrar istehsal məhsullardan istifadə

» Resursların qənaətlə istifadə edilməsi (su, enerji və s.)




## Qayğıya ehtiyacı olan qadın və uşaqlara yardım

Gender bərabərliyi, qadın və uşaq hüquqlarının qorunması məsələsinə hər zaman diqqətlə yanaşan AMADA sosial məsuliyyət tədbirlərini belə xüsusi diqqətdə saxlayır.

# STAY CLEAN

AMADA
STAY CLEAN

AZƏRBAYCAN MİLLİ
ANTİDOPİNQ AGENTLİYİ